2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Tofiq Həsənovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 4 yanvar 2020-ci il tarixli 57 saylı müraciət üzrə

**RƏYİ**

Bakı şəhəri 4 yanvar 2020-ci il

Mən, ekspert qrupunun üzvü Tofiq Həsənov 2019-cu il dekabrın 23-də bələdiyyələrə keçirilmiş seçkilərdə 71 saylı Masallı kənd seçki dairəsindən Ərkivan bələdiyyəsi üzrə qeydə alınmış namizəd Cahangirov Afər Nadir oğlu 71 saylı Masallı kənd seçki dairəsi 1, 2, 3, 4, 5, 6, 37, 38, 41 və 42 saylı seçki məntəqələrində səsvermənin nəticələrinin mübahisələndirilməsinə və Ərkivan bələdiyyəsi üzrə seçkilərin nəticələrinin ləğv edilməsinə dair 4 yanvar 2020-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 57 saylı müraciətini nəzərdən keçirərək **m ü ə y y ə n e t d i m :**

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın tələblərinə uyğun olaraq araşdırmaya qəbul edilmişdir.

Ərizəçi müraciətdə 1, 2, 3, 4, 5, 6, 37, 38, 41 və 42 saylı seçki məntəqələrində səsvermədən və səslərin hesablanmasından sonra məntəqə seçki komissiyasının protokolunun surətini onun müşahidəçilərinin almadıqlarını bildirmiş və şikayətinə bir ədəd videodisk və müşahidəçilərinin ərizələrini əlavə etmişdir.

Araşdırma prosesində müraciət etmiş qeydə alınmış namizəd A.N.Cahangirovla əlaqə saxlanılmış, əlavə olaraq sənəd və materiallar təqdim etmək, araşdırmada iştirak etmək və digər hüquqlarının olması izah edilmişdir.

Həmçinin, dairə seçki komissiyasının mübahisələndirilən qərarı və digər sənədlər araşdırma materiallarına əlavə edilmişdir.

71 saylı Masallı kənd seçki dairəsinin dairə seçki komissiyası qərarını onunla əsaslandırmışdır ki, səsvermə günü seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntuları ilə bağlı iddia olunanlar DSK-ya ünvanlanmış müraciətdə öz əksini tapmadığından tələb aydın olmamışdır. Elə bu səbəbdən də qeydə alınmış namizəd A.N.Cahangirovun müraciəti əsassız olduğundan təmin edilməmişdir.

Araşdırma zamanı müəyyən edilmişdir ki, səsvermə günü 71 saylı Masallı kənd seçki dairəsinin 1, 2, 3, 4, 5, 6, 37, 38, 41 və 42 saylı seçki məntəqələrində baş verməsi iddia edilən qanun pozuntuları təsdiqini tapmamış, seçicilər sərbəst şəkildə səs verərək öz iradələrini ifadə etmiş, məntəqə seçki komissiyasının səsvermənin nəticələrinə dair yekun protokolu Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq tərtib olunmuşdur. Belə ki, səsvermə günü baş verməsi iddia edilən qanun pozuntuları öz təsdiqini tapmamış və bu hal səslərin sayılmasını müşahidə etmiş, səsvermənin nəticələrinə dair protokolun surətini almış müşahidəçilər F.B.Ağayevin, Z.Ə. Əsədovun, N.F.Cəbrayılovun, T.N. Bağırovanın, R.M.Məmmədovun, Q.K.Əliyevin, E.T.Salayevin, F.C.Burhanlının, İ.S.Həsənovun, T.M.Səmədovun, A.M.Ağayevin, A.A.Aliyevin, A.A.Nuralıyevin, E.A.İbrahimlinin, A.H.Bağırovun, İ.S.Əyyubovun, R.İ.Həmidovun, X.M.Həmidovun, qeydə alınmış, lakin seçilməyən namizədlər S.L.Şiriyevin, N.Ə.Əliyevin və məntəqə seçki komissiyalarının sədrlərinin izahatları ilə təsdiq olunur.

Həmçinin, səsvermə günü qeydə alınmış namizəd A.N.Cahangirovun maraqlarını təmsil edən 2 saylı məntəqədə müşahidəçi S.F.Məmmədovun, 5 saylı məntəqədə müşahidəçi N.B.Atakişiyevin, 37 saylı məntəqədə V.Y.Əbilovun, 38 saylı məntəqədə R.B.Cəbiyevin, 42 saylı məntəqədə H.C.Həmidovun verilmiş izahatlarından görünür ki,

seçki günü hüquq pozuntuları baş verməmiş, səslərin sayılmsından sonra səsvermənin nəticələrinə dair protokolun surətinin verilməsində heç bir maneə olmamışdır.

Müraciətə əlavə olunmuş video diskdəki görüntülərdə qeydə alınmış namizəd A.N.Cahangirovun vətəndaşlarla görüş keçirməklə seçkiqabağı təşviqat apardığı əks olunmuşdur ki, həmin görüntülərin səsvermə günü mübahisələndirilən qanun pozuntuları ilə hər hansı bir əlaqəsinin olması öz təsdiqini tapmamışdır.

Araşdırma nəticəsində şikayətin təmin edilməsi üçün hüquqi əsaslar müəyyən olunmamışdır və 71 saylı Masallı kənd seçki dairəsi dairə seçki komissiyasının 28 dekabr 2019-cu il tarixli 40/458 saylı qərarı seçki qanunvericiliyinin tələblərinə uyğun qəbul edilmişdir.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-cü, 28.4-cü, 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1, 2, 4, 6 və 7-ci hissələrinə əsasən rəyə gəldim:

1. 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 71 saylı Masallı kənd seçki dairəsindən Ərkivan bələdiyyəsi üzrə qeydə alınmış namizəd Cahangirov Afər Nadir oğlu 4 yanvar 2020-ci il tarixli 57 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 28 dekabr 2019-cu il tarixli 40/458 saylı qərarı dəyişdirilmədən saxlanılsın.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Tofiq Həsənov